# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub**



4

SƏS

№ 041 (7451)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

2 iyun 2026-cı il.
Qiyməti 1 manat

# "Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir"

Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində iştirak edib



3

# Dünya üçün BÖYÜK TƏHLÜKƏ - nüvə silahından istifadə olunacaqmı?



7

**XXI əsrin uşaqları: ekranlar, hüquqlar və dəyişən uşaqlıq**



8

**Ekoloqlar: "Dayanıqlıq yaradılmasa yanğınların arealı artacaq"**



7

**Kənd təsərrüfatı sahəsinə daim çox böyük diqqət göstərilir**



6

## 3 uşaqlı ailələrə uşaqpulu veriləcək?



6

## Uşaqlarımızı Tik-tokdan QORUYAQ - təhlükə qapıdadır!



6

# Böyük Qayıdış: yeni hədəflər

## Prezident İlham Əliyev: "28 May - Müstəqillik Günü bayramını azad edilmiş torpaqlarda qeyd edirəm və bu, artıq bir ənənəyə çevrilib"



Çağdaş dünyamızda tamamilə yeni bir dövrə qədəm qoyan Azərbaycan Böyük Qayıdış konsepsiyasını uğurla reallaşdırır. İşğaldan azad edilmiş torpaqlara qayıdırıq və həmin yerlərdə yeni bir həyat başlayır. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olunandan sonra Qarabağımız və Şərqi Zəngəzur müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçərək böyük quruculuq işlərini həyata keçirməyə başlayıb. Bu gün Şuşamızda, Kəlbəcərdə, Qubadlıda və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb və işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevrilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Qarabağın hər bir yerində sahib kimi, bu Vətənin övladları kimi yaşayırıq, qururuq, bərpa edirik". Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Respublika günündə işdaldan azad olunan ərazilərimizə səfər edib. Prezident İlham Əliyev mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb. "Müstəqillik - bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax, Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq." Bu sözləri Prezident sakinlərlə görüşündə bildirib. Dövlət başçısı qeyd edib ki, şanlı Zəfərimizdən sonra bu gözəl bayramı - 28 May - Müstəqillik Günü bayramını azad edilmiş torpaqlarda qeyd edirəm və bu, artıq bir ənənəyə çevrilib: " Hesab edirəm ki, ən düzgün seçimdir. Bu Müstəqillik Günü hər birimiz üçün çox əzizdir. Amma o da faktdır ki, o vaxt - 1918-ci ildə əldə edilmiş müstəqillik cəmi iki il çəkdi. Onu o vaxt saxlaya bilmədik, əlimizdən alındı. Ondan sonra 70 il müstəqil dövlət kimi yaşamadıq".

### "HƏR ŞEY EDİLİR Kİ, İNSANLAR BURADA RAHAT YAŞASINLAR VƏ ƏSAS ODUR Kİ, DOĞMA VƏTƏN TORPAĞINDA"

Böyük Qaladərəsi Şuşa rayonunun Qaladərəsi kənd inzibati ərazi dairəsində yerləşir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı zamanı Böyük Qaladərəsi işğaldan azad olunub. Kənddə yaşayış üçün lazımi şəraitin yaradılması və sosial məsələlərin həlli istiqamətində bir sıra layihələr icra olunub. Burada transformator quraşdırılıb, yeni elektrik xətləri çəkilib, mövcud xətlər isə bərpa olunub. İlkin mərhələdə məskunlaşdırılacaq fərdi evlər sayğaclaşdırılıb.

"Burada sizin üçün gözəl şərait yaradılıb. Burada evlərin, demək olar ki, əksəriyyəti dağılmışdı. Onların 17-si hazırdır, 20-si də ikinci mərhələdə hazır olacaq və ondan sonra da evlər tikiləcək. Burada qonşuluqda da iş gedir. Kiçik Qaladərəsi, Turşsu, Sarıbaba. Laçın da yaxındır, Şuşa da yaxındır. İndi yeni yol da çəkilir və gediş-gəliş də daha rahat olacaq. Yəqin ki, görmüsünüz, biz Şuşa-Laçın yolunu genişləndiririk, həm də tunellər inşa edilir. Hər şey edilir ki, insanlar burada rahat yaşasınlar və əsas odur ki, doğma vətən torpağında", - deyə Prezident bildirib.

### HƏRBİ QULLUQÇULARIN MƏNZİL-MƏİŞƏT ŞƏRAİTİ YAXŞILAŞDIRILIR

Prezident İlham Əliyev Xocalı rayonunda əsaslı təmir edilən və Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub. Burada ümumilikdə 191 fərdi ev var. Onlardan 1-i ikiotaqlı, 70-i üçotaqlı, 93-ü dördotaqlı, 8-i beşotaqlı, 1-i isə səkkizotaqlıdır. Bundan başqa, ərazidə ikimərtəbəli, yeddiotaqlı 18 ev də var.

Evlərdə sakinlərin rahat yaşaması və istirahəti üçün zəruri şərait yaradılıb. Evlər elektrik enerjisi və qazla təchiz olunub. Həmçinin ərazidə kommunikasiya layihələri, o cümlədən məhəlledaxili yolların yenidən qurulması icra olunub. Sakinlərin istirahəti üçün park salınıb, Bayraq meydanı yaradılıb. Qeyd edək ki, hərbi qulluqçuların xidməti evlərlə təmin olunması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mühüm istiqamətlərindəndir. Bu yanaşma ilk növbədə hərbi qulluqçuların, onların ailələrinin sosial qayğılarının həllinə xidmət edir. İndiyədək minlərlə hərbçinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların dövlət vəsaiti hesabına mənzillərlə təmin edilməsi istiqamətində konkret layihələr icra olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xocalı şəhərində "Qarabağ Tekstil Evi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) açılışında iştirak edib. Türkiyə və Çin texnologiyalarının quraşdırıldığı müəssisədə il ərzində 1,4 milyon ədəd tekstil məhsulu istehsal olunacaq.

"Qısa müddət ərzində belə bərpa-quruculuq işləri aparmaq, bu da xalq üçündür. Yəni insanlar tez qayıtsınlar, rahat yaşasınlar və burada özlərini, necə deyərlər, çox rahat, təhlükəsiz hiss etsinlər, qurubyaratsınlar, uşaqları böyütsünlər, ağbirçəklərə qulluq etsinlər və həyatdan zövq alsınlar. Siz buna layiqsiniz. Siz 30 il əzab-əziyyət içində yaşamısınız, bundan sonra ancaq xoşbəxt həyat olmalıdır", - deyə Prezident bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***



# "İkitərəfli münasibətlərimiz uğurla inkişaf edir"

## Prezident İlham Əliyev ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Kaleb Orra "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən sərgilərin və "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak etdiyinə görə təşəkkürünü bildirdi.***

ABŞ Prezidenti Donald Trampın bu tədbirə məktub ünvanlamasını məmnunluqla vurğulayan Prezident İlham Əliyev bu yanaşmanın və tərəfdaşlığın çox yüksək qiymətləndirildiyini bildirdi, buna görə ABŞ dövlətinin başçısına minnətdarlığını ifadə etdi. Son dövrlərdə ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının, həmçinin bu Xartiya əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılmasının əhəmiyyətinə toxundu, Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçiriləcəyini vurğuladı. Bu xüsusda Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığı bildirildi.

Dövlətimizin başçısı "Bakı Enerji Həftəsi" çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu. Kaleb Orr ABŞ Prezidenti Donald Trampın və Dövlət katibi Marko Rubionun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Donald Trampa və Marko Rubioya çatdırmağı xahiş etdi. Qonaq vurğuladı ki, Donald Trampın "Bakı Enerji Həftəsi"nə məktub ünvanlaması tədbirin Amerika Birləşmiş Ştatları üçün nə qədər önəmli olduğunu göstərir.

Kaleb Orr, eyni zamanda dedi ki, bu tədbir enerji bazarlarının vəziyyəti ilə bağlı müzakirələr aparmaq baxımından Prezident İlham Əliyevin liderlik rolunu nümayiş etdirir. Söhbət zamanı "Bakı Enerji Həftəsi"nin qlobal enerji məsələləri barədə fikir mübadiləsi aparmaq, həmçinin dünyanın qabaqcıl enerji şirkətləri, dövlət qurumları, investorlar və sənaye mütəxəssisləri arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün uğurlu platforma olduğu vurğulandı. Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğu qeyd edildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# “Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir”

## Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində iştirak edib

### “Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir”



İyunun 1-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ”Caspian Oil and Gas”, 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi ”Caspian Power” və 31-ci ”Baku Energy Forum”un rəsmi açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan ”Bakı Enerji Həftəsi” adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid ”Şahdəniz” müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub.

”Bu bir daha göstərir ki, ”Bakı Enerji Həftəsi” qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm.

Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar.

Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!

Bir sözlə, hesab edirəm ki, hazırda qlobal enerji səhnəsində baş verən hallar ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəlmişdir. Hamımız ona bir daha minnətdarıq. Ölkələr neft və qazın mövcud olmasına görə günahlandırılmalı deyil, çünki neft və qaz digər adi əmtəə kimidir. Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, yaşıl gündəlik məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız.




Hörmətli iştirakçı və təşkilatçı tərəfindən qeyd edildi ki, Azərbaycanın enerji inkişafı 1994-cü ildə başladı. Yeri gəlmişkən, təşkilatçılara da öz dərin təşəkkürümüzü bildiririk. Əgər 1994-cü ilə nəzər salsaq, keçmişdə Azərbaycanın çox ağır vəziyyətdə olduğunu görə bilərik. Ölkə iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit idi. Ərazinin təxminən 20 faizi Ermənistanın işğalı altında idi. Bir milyon qaçqın var idi və həmin vaxt, bu, ola bilsin, adambaşına düşən ən yüksək qaçqın sayı idi. Bizim heç bir vəsaitimiz yox idi. Elektrik enerjisini idxal edirdik. Biz hətta təbii qazı idxal edirdik. Yoxsulluq səviyyəsi 50 faizdən artıq idi. İşsizlik geniş yayılmışdı. Müstəqil ölkə kimi yaşamaq və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi. Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu.”

Dövlətimizin başısı qeyd edib ki, bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir.

”Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı. Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik.



Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər. Əminəm ki, ənənəvi olaraq ”Bakı Enerji Həftəsi” bu dəfə də uğurlu nəticələr verəcəkdir. Bir neçə dəqiqədən sonra bu nəticələrin bir qisminin şahidi olacağıq.”

Daha sonra Amerika Birləşmiş Ştatlarının İqtisadiyyat, Enerji və Biznes məsələləri üzrə Büronun katibinin köməkçisi Kaleb Orr, Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı Devid Rid və digərləri çıxış ediblər.

Sonra ”Azəri-Çıraq-Günəşli” yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatına başlanması mərasimi keçirilib. Daha sonra bir sıra sənədlər imzalanıb, Prezident İlham Əliyev sərginin xatirə kitabını imzalayıb və sərgilərlə tanış olub.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti "Belaya Rus" Partiyasının dəvəti ilə "XXI əsrdə çoxqütblülük və müxtəliflik şəraitində dövlət suverenliyi və beynəlxalq münasibətlərin prinsipləri" mövzusunda II Beynəlxalq Konfransda iştirak etmək məqsədilə Belarus Respublikasına səfər edib.***

Mayın 28-də konfrans iştirakçıları "Brest - Qəhrəman Qala" Memorial Kompleksində Əbədi məşəlin önünə çələng və gül dəstələri qoyaraq İkinci Dünya müharibəsində həyatını itirmiş qəhrəmanların xatirəsini ehtiramla yad ediblər.

Açılış mərasimində Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun konfrans iştirakçılarına müraciəti səsləndirilib.

Sonra "Belaya Rus" Partiyasının Ali Siyasi Şurası Prezidiumunun üzvü Andrey Krivoşeyevin moderatorluğu ilə keçirilən plenar iclaslarda "Belaya Rus" Partiyasının sədri Olqa Çemodanova, Zimbabve Respublikası Milli Assambleyasının sədri, Zimbabve Afrika Milli İttifaqı - Vətənpərvər Cəbhə partiyasının baş katibi Ceykob Frensis Nevidamilimo Mudenda, Moldova Respublikasının sabiq prezidenti, Sosialistlər Partiyasının sədri İqor Dodon, Sahibkarlar və İşadamları Hərəkatı - Özbəkistan Liberal - Demokratik Partiyası Siyasi Şurasının İcra Komitəsinin sədri Aktam Xaitov, "Yedinaya Rossiya" Partiyasının Ali Şurasının Beynəlxalq əməkdaşlıq komissiyasının üzvü, Rusiya Federasiyası Federal Şurası Dövlət Dumasının MDB məsləri üzrə Komitəsi sədrinin müavini Artyom Turov, Tacikistan Xalq Demokratik Partiyası sədrinin birinci müavini Malikşo Nematzoda, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Myanma İttifaqı Respublikasının Həmrəylik və İnkişaf Partiyası sədrinin müavini U Xla Xtun, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr komitəsinin sədri Bunlıa Pxandanuvonq, Koreya Xalq Demokratik Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Əmək Partiyasının üzvü Çi Kyon Su, Kuba Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Kuba Kommunist Partiyasının üzvü Santyaqo Peres Benites, Qazaxıstanın "AMANAT" partiyasının katibi Aleksandr Danilov, Almaniya üçün Alternativ partiyasından "Lauxhammer" parlament qrupunun rəhbəri Ştefan Korte, Serbiya Sosialistlər Hərəkatı Prezidiumunun üzvü, partiyanın Belqrad şəhər komitəsinin sədri Vladimir İliç, "Belaya Rus" partiyası Ali Siyasi Şurası Prezidiumunun üzvü, Belarus Respublikası Milli Assambleyasının Nümayəndələr Palatasının üzvü Aleksandr Şpakovskiy, Venesuela Vahid Sosialist Partiyası Siyasi Şurasının üzvü, Milli Assambleyanın üzvü Uilyam Farina və Brest Vilayəti İcra Komitəsinin sədri Pyotr Parxomçik çıxış ediblər.

Çıxışlarda dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda və çoxqütblü dünya nizamına transformasiya şəraitində dövlət suverenliyinin qorunmasının, regional və qlobal təhlükəsizlik naminə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanaraq bu xüsusda partiya diplomatiyasının önəminə diqqət çəkilib.

Ayrı-ayrı regionlarda baş verən hərbi-siyasi münaqişələrin və humanitar böhranların qlobal təhlükəsizliyə ciddi təhdidlər yaratdığı vurğulanaraq bütün mübahisəli məsələlərin beynəlxalq hüquq normaları əsasında həllinin vacibliyi qeyd olunub. Bildirilib ki, ölkələrin daxili işlərinə müdaxilə yolverilməzdir və milli maraqlarına mütləq şəkildə hörmət edilməlidir.

Separatizmin və neolokolonializmin bütün forma və təzahürlərinə, müstəqil siyasət həyata keçirən ölkələrə qarşı ikili standartlara söykənən qərəzli münasibətə, çoxsaylı hibrid təhdidlərə, dezinformasiya, manipulyasiya və qara piar kampaniyalarına qarşı qətiyyətli mübarizənin önəmi nəzərə çatdırılıb. Bu kontekstdə dost və tərəfdaş ölkələrin həmrəylik nümayiş etdirməsinin, eləcə də aparıcı ictimai institut kimi siyasi partiyaların səylərinin birləşdirilməsinin və beynəlxalq platformalarda qarşılıqlı dəstəyin təmin olunmasının əhəmiyyəti vurğulanıb.

Partiya diplomatiyasının təkcə ikitərəfli əlaqələrin inkişafını əhatə etmədiyi və çoxşaxəli işbirliyinə hədəfləndiyi qeyd edilərək konfransın beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inam ifadə olunub.










Plenar iclasda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu mötəbər konfransın yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə ev sahibi "Belaya Rus" Partiyasına Yeni Azərbaycan Partiyası adından təşəkkürünü bildirib.

YAP Sədrinin müavini qeyd edib ki, XXI əsrdə müasir dünya nizamının çoxqütblü sistemə getdikcə daha çox transformasiyası ilə müşayiət olunan mürəkkəb geosiyasi proseslər şəraitində dövlətlər arasında qarşılıqlı hörmətə və bərabərhüquqlu tərəfdaşlığa əsaslanan əməkdaşlıq münasibətlərinin qurulması, eyni zamanda milli suverenliyin təmin edilməsi və maraqların qorunması xüsusi əhəmiyyət kəsb edir: "İnkişaf və tərəqqinin ən vacib şərti sülh və təhlükəsizlikdir. Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışı yalnız hərbi münaqişələrlə məhdudlaşmır. Siyasi dialoq, qarşılıqlı etimad və inklüziv əməkdaşlıq mexanizmləri fikir ayrılıqlarının qarşısının alınmasında və dayanıqlı sülhün təmin edilməsində əsas rol oynayır".







Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın həyata keçirdiyi çoxşaxəli və məqsədyönlü siyasət bütövlükdə regionda davamlı sülhün, sabitliyin və rifahın təmin olunmasına xidmət edir: "Bu siyasətin ideoloji və hüquqi əsasını beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığın təşviqi təşkil edir.




***Ardı Səh. 5***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Belarusda səfərdə olub
























Əvvəli Səh. 4

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı tikinti-bərpa işləri çərçivəsində müasir nəqliyyat-kommunikasiya infrastrukturu yaradılır, yaşayış məntəqələri isə yeni "ağıllı" konsepsiyalar əsasında yenidən qurulur. Həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regional əməkdaşlıq və inkişaf baxımından potensialından istifadəsi çərçivəsində Zəngəzur dəhlizinin reallaşdırılması yönündə işlər sürətlə aparılmaqdadır. Bütün bu tədbirlər ölkəmizin sülhə, təhlükəsizliyə və davamlı inkişafa verdiyi önəmin bariz göstəricisidir. Uzunmüddətli regional təhlükəsizlik və inkişafın təmin olunmasına mühüm zəmin yaradan bu yanaşma postmünaqişə dövründə sülhün möhkəmləndirilməsi və qarşılıqlı etimadın gücləndirilməsi baxımından praktik və nümunəvi model kimi çıxış edir".

YAP Sədrinin müavini bildirib ki, qloballaşma şəraitində, beynəlxalq münasibətlərin strukturunun dəyişməsi, qeyri-dövlət aktorlarının rolunun artması və çoxtərəfli əməkdaşlıq formatlarının genişlənməsi fonunda beynəlxalq sistemin fəal iştirakçıları kimi siyasi partiyaların rolu durmadan artır: "Bu kontekstdə partiyalararası dialoq ənənəvi diplomatik mexanizmləri tamamlayan, bəzən isə onları qabaqlayan mühüm vasitə kimi çıxış edir. Regionumuzda və ondan kənarda dayanıqlı sülhün təmin edilməsi üçün inklüziv əməkdaşlıq və qarşılıqlı hörmət prinsipləri əsas götürülməlidir. Bu baxımdan, siyasi partiyalar, müxtəlif beyin mərkəzləri və beynəlxalq siyasi partiya təşkilatları arasında əməkdaşlığın daha da genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası beynəlxalq səviyyədə müxtəlif siyasi partiyalar arasında dialoqu təşviq edir. İkitərəfli formatda, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlər və müzakirələr qarşılıqlı anlaşmanın dərinləşməsinə və müasir qlobal çağırışlara cavab olaraq birgə yanaşmaların formalaşdırılmasına töhfə verir. İkitərəfli əlaqələr kontekstində partiyamızın əməkdaşlıq etdiyi Azərbaycana dost ölkələrin aparıcı siyasi partiyalarının sayı artmaqda, coğrafiyası daim genişlənməkdədir. Sevindirici haldır ki, dostluq, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan Azərbaycan-Belarus münasibətlərinin dövlət başçılarımız cənab İlham Əliyev və cənab Aleksandr Lukaşenkonun müdrik və uzaqgörən siyasəti sayəsində hərtərəfli inkişafı fonunda YAP ilə "Belaya Rus" partiyası arasında əməkdaşlıq yeni yaranmasına baxmayaraq, sürətlə inkişaf edir. Bu isə ölkələrimiz və xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə kimi qiymətləndirilə bilər. Eyni zamanda, YAP dünyanın müxtəlif regionlarından yüzlərlə partiyanı əhatə edən Mərkəzçi Demokrat İnternasionalı və Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı kimi siyasi partiya təşkilatları ilə fəal əməkdaşlıq edir. Son illərdə YAP müxtəlif qitələrin aparıcı siyasi partiyalarının yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə regional və qlobal əhəmiyyət kəsb edən aktual məsələlərin müzakirəsi üçün beynəlxalq platforma formalaşdırmışdır. 2022-ci ildən etibarən iyunun 15-də Şuşa şəhərində keçirilən beynəlxalq konfransların mövzu və iştirak baxımından əhatə dairəsi sürətlə genişlənməkdədir. "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusuna həsr olunmuş qarşıdan gələn konfransda dövlət və hökumət strukturlarının nümayəndələri, müxtəlif ölkələrin aparıcı siyasi partiyaları, nüfuzlu analitik mərkəzlər və kütləvi informasiya vasitələrinin iştirakı ilə qlobal çağırışlar şəraitində sülh quruculuğu və partiyalararası diplomatiya mexanizmləri, regional əməkdaşlığın iqtisadi əsasları, eləcə də postmünaqişə dövründə ərazilərin bərpası və müasir şəhərsalma məsələləri ətraflı müzakirə olunacaqdır".

"Partiyalararası dialoq yalnız siyasi əməkdaşlığı deyil, eyni zamanda, humanitar və iqtisadi əlaqələrin genişlənməsini də stimullaşdırır. Bu baxımdan, tarixi Brest şəhərində keçirilən bu mötəbər tədbirin ölkələrimiz və xalqlarımızın mənafelərinə, eləcə də qlobal sülh və tərəqqiyə xidmət edən uğurlu nəticələrlə yadda qalacağına əminliyimi ifadə edirəm. Konfransın işinə uğurlar arzulayıram" , - deyə T.Budaqov əlavə edib.

Tədbirin sonunda konfransda aparılmış müzakirələrin yekunlarını özündə əks etdirən qətnamə qəbul olunub.

YAP nümayəndə heyəti "Belaya Rus" Partiyası adından konfrans iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə də iştirak edib.

Nümayəndə heyətlərinin "Brest - Qəhrəman Qala" Memorial Kompleksinə, Respublika Gənclərin Vətənpərvərlik Tərbiyəsi Mərkəzinə və "Belovejskaya Puşça" Milli Parkına ziyarəti təşkil edilib. Həmçinin nümayəndə heyətləri Brest vilayətində bir sıra kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti ilə tanış olublar.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Zimbabve Afrika Milli İttifaqı - Vətənpərvər Cəbhə partiyasının baş katibi Ceykob Frensis Nevidamilimo Mudenda arasında keçirilən görüşdə dövlət başçılarının siyasi iradəsi sayəsində hər iki ölkənin BMT, Qoşulmama Hərəkatı və digər bir sıra beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyi vurğulanıb. İkitərəfli münasibətlərin inkişafı üçün mühüm potensialın mövcud olduğu qeyd edilib. Regional və beynəlxalq təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsinin aparıldığı görüş zamanı siyasi partiyalar və parlamentlər arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Belarus Milli Dövlət Teleradio Şirkətinin "Birinci informasiya" kanalına müsahibəsində beynəlxalq konfransın əhəmiyyətinə və səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb.

YAP nümayəndə heyətinin səfəri mayın 30-da başa çatıb.

# Kənd təsərrüfatı sahəsinə daim çox böyük diqqət göstərilir

Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Son illər bu vacib sahənin ölkə iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına töhfəsi getdikcə artır. Hələ zamanında ümummilli lider Heydər Əliyevin gərgin əməyi sayəsində istər keçmiş sovetlər dönəmində, istərsə də müstəqillik illərində bütün sahələrdə olduğu kimi, aqrar sahədə də ciddi islahatlar aparılıb, ehtiyatlardan səmərəli və məqsədyönlü istifadə təmin olunub, sahənin dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb. Əsası Ulu öndər tərəfindən qoyulmuş aqrar strategiya hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi strategiya nəticəsində aqrar sektor keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Kənd təsərrüfatının strateji əhəmiyyətli və iqtisadi cəhətdən səmərəli istehsal sahələrinin inkişaf etdirilməsi prioritet vəzifələrdən biri kimi müəyyən edilib.





*Nizami NOVRUZOV, Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədr müavini, texnika üzrə fəlsəfə doktoru*

Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib. Müşavirə zamanı aqrar və su təsərrüfatında mövcud islahatlar, eləcə də "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026?2030-cu illər üçün Dövlət Proqramı" müzakirə edilib. Prezident cənab İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə çıxışı aqrar sahənin ölkə iqtisadiyyatında mühüm yer tutduğunu bir daha göstərmişdir. Dövlət başçısının "Kənd təsərrüfatı sahəsinə daim çox böyük diqqət göstərilir" fikri dövlətin aqrar sektorun inkişafını prioritet istiqamətlərdən biri kimi müəyyən etdiyini ifadə edir.

Qeyd etdiyim kimi Azərbaycanda kənd təsərrüfatı əhalinin məşğulluğunun təmin olunmasında və ərzaq təhlükəsizliyinin qorunmasında mühüm rol oynayır. Dövlət tərəfindən fermerlərə göstərilən dəstək, subsidiyaların ayrılması, güzəştli kreditlərin verilməsi və müasir texnologiyaların tətbiqi aqrar sahənin inkişafına müsbət təsir göstərir. Məhz bu tədbirlər kənd təsərrüfatında məhsuldarlığın artırılmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradır.

Dövlət başçısının müşavirədə vurğuladığı əsas məsələlərdən biri də kənd təsərrüfatının modernləşdirilməsi olmuşdur. Müasir suvarma sistemlərinin qurulması, yeni texnikaların istifadəsi və innovativ üsulların tətbiqi kənd təsərrüfatının daha səmərəli inkişafına imkan yaradır. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı proqramları çərçivəsində kənd yerlərində infrastrukturun yaxşılaşdırılması kənd əhalisinin rifahına mühüm töhfə verir.

Kənd təsərrüfatının inkişafı ixrac potensialının artırılması baxımından da böyük əhəmiyyət daşıyır. Yerli məhsulların xarici bazarlara çıxarılması ölkə iqtisadiyyatının gücləndirilməsinə və qeyri-neft sektorunun inkişafına xidmət edir. Bu istiqamətdə həyata keçirilən dövlət siyasəti aqrar sahənin davamlı inkişafını təmin etməyə yönəlmişdir. Ümumiyyətlə, ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın göstəricisidir. Bu tərəqqi və rifah, əhalinin maddi durumunun əhəmiyyətli dərəcədə yaxşılaşması aparılan məqsədyönlü dövlət siyasətinin bəhrəsidir.

# Uşaqlarımızı Tik-tokdan QORUYAQ - təhlükə qapıdadır!

## Mətləb Salahov: "Sosial şəbəkələrdə milli dəyərlərimizə zidd ünsürlərin təbliğ edilməsi milli genefonumuz üçün son dərəcə təhlükəlidir"

"Artıq tam əminliklə demək olar ki, tik tok sosial platforması milli dəyərlərimiz, uşaq və yeniyetmələrimizin gələcəyi üçün əsl kabusa çevrilib. Bütün günü cinsi azlıqların, nikahdankənar yollarla uşaq dünyaya gətirən ləçər küçə "müğənnilərinin" önə çıxarılması, onların dəbdəbəli həyat şəraitinin sosial şəbəkə platformasında reklam olunması ilk əvvəl gələcək nəsillərimiz, xalq olaraq gələcəyimiz və genefonumuz baxımından olduqca təhlükəlidir. Hətta erməni faşizmindən belə təhlükəli faktdır bu məsələ. Çünki Tik tok platformasında təbliğ olunan iyrənc təbliğat, ilk əvvəl azərbaycançılığımızı, milli dəyərələrimizi, oğlan uşaqlarımıza xas KİŞİLİK dəyərlərini məhv etməyi hədəf alıb. Bu fakt, olduqca təhlükə siqnalıdır".



Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Tik tok sosial şəbəkəsinə dövlət nəzarəti həmişəkindən daha aktual zərurətdir. Təsəvvür edin ki, bu günün tək reallığı ondan ibarətdir ki, nəzarətsiz sosial proqramlar və onlardan geri qalmayan sosial şəbəkə seqmenti bu xalqın mənəviyyatına, kişilik, qeyrət, ar-namus kimi müqəddəs dəyərlərinə düşmən kəsilib. Bu, qətiyyən iddia deyil, faktdır, acı reallıqdır. Bu nəzarətsiz sosial platforma və rəzalət efirlər o dərəcədə təhlükəli hal alıb ki, hətta minillik azərbaycanlı ailə dəyərlərinə belə qənim kəsiliblər. Cəmiyyət olaraq bu prosesə "dur" deməsək, inanın, daha böyük mənəvi zərbələr alacağıq"

**Afət Tahirqızı**



**Elçin Bayramlı**

# 3 uşaqlı ailələrə uşaqpulu veriləcək?

***Azərbaycanda çoxuşaqlı ailə statusu və müavinət üçün uşaq sayı (6 və daha çox uşaq) yüksəkdir. Ölkədə doğum səviyyəsi kəskin azalıb və hazırda hər ana başına 1.6 uşaq düşür. Bu artımı stimullaşdırmaq üçün bir çox deputatlar və ictimai xadimlər tərəfindən çoxuşaqlılıq meyarının 3 uşağa endirilməsi təklif edilir.***

Son dövrlər bütün dünyada belə bir tendensiya gedir: doğumun azalması, əhalinin artımının zəifləməsi. Ortalama fertillik əmsalı bütün ölkələrdə aşağı düşüb. Məlum olduğu kimi, minimal norma 2.1-dir. Yəni, 2.1-dən aşağı əhalinin azalması deməkdir, əhalinin qocalması deməkdir və tədricən, onillər ərzində bir cəmiyyətin azalaraq yoxa çıxmasına gətirib çıxarır. Avropa ölkələrində təxminən bu rəqəmlərdir: 1 ilə 1.8 arasında. Bu isə orda ciddi demoqrafik problemlərə gətirib çıxarır. Azərbaycan üçün 1,6 çox aşağı göstəricidir. Bizdə minimum 2.5 - 3 olmalıdır; əvvəllər belə idi.

Dünya ölkələrində bununla bağlı bir çox sosial dəstək proqramları var, müxtəlif ölkələrdə fərqli formalarda həyata keçirilir. Bu uşaqpulu formasında olur, çoxuşaqlılığa görə əlavə müavinətlər, müxtəlif sosial güzəştlər formasında olur və s.

Bizdə də bəziləri var- uşaq doğumuna görə birdəfəlik müavinət, 6 və daha çox uşağa görə uşaqpulu, bir də həssas qruplara görə sosial müavinətlər var. Hazırda bizdə olan çoxuşaqlılıq meyarı çox onillər əvvəl müəyyənləşdirilib- 6 uşaqdan başlayır. İndiki dövrdə bu adekvat deyil. Çünki, bu gün artıq 3 uşaqlı ailə faktiki olaraq çoxuşaqlıdır. Biz artıq 1 uşaqlı ailə modelinə keçmişik, yaxşı halda 2 uşaq olur ailələrdə, nadir hallarda isə 3, 4 və sairə.

Deməli, çoxuşaqlılıq meyarı 6-dan 3-ə salınmalıdır. Bütün uşaqlara uşaqpulu vermək mümkün olmursa, o halda, heç olmasa, 3 uşaqlı ailələrə bunu tətbiq etmək lazımdır. 3 uşaqlı ailələr çoxuşaqlı elan olunmalı və onlara həmin güzəştlər, yardımlar tətbiq olunmalıdır. Bu, ən azı ailələrdə 3 uşağı stimullaşdıra bilər.

Bir millətin artımı üçün ailələrdə orta uşaq sayı 3 olmalıdır. 1-2 uşaqlı ailələr azalmaya xidmət edir. Bu, son nəticədə əhalinin qocalmasına gətirib çıxarır, əhalinin strukturunda uşaqların və gənclərin çəkisini kəskin azaldır. Bizdə də son statistika bu təhlükəni göstərir. Bizim bununla bağlı ciddi maliyyə imkanlarımız var, hər cür potensial var. Bunu eləyə bilərik, necə ki əksər ölkələr edir.

Təbliğ etmək lazımdır, çalışmaq lazımdır ki, ailələrdə 3 uşaq olsun. Burda həm sosial dəstək paketlərinin rolu var, həm də mənəvi-psixoloji təbliğatın. Son dövrlərdəki bu azalma təkcə sosial şərtlərlə bağlı deyil, daha çox faizi mənəvi deqradasiya ilə bağlıdır. Çünki, biz görürük ki, maddi-sosial baxımdan vəziyyəti yüksək olan ailələr belə, bir uşaqla kifayətlənir, maksimum iki uşaqla. Bu o deməkdir ki, burda maddi problem deyil, mənəvi problemdir.

İnsanların həyat tərzi, həyata baxışları, psixologiyaları dəyişib və özləri üçün yaşamağa çalışırlar. Açıq şəkildə bəzi gənclər deyirlər ki, biz nə qədər maddi imkanımız olsa da, vaxtımızı, gəlirimizi özümüzə, əyləncəmizə sərf etmək istəyirik, uşaqlara yox. Bax bu çox təhlükəli tendensiyadır. Bu qeyri-təbii, qeyri-mənəvi, bioloji qanunlara da zidd olan qorxunc bir qlobal təbliğatın təsiridir. Öz milli mənəvi dəyərlərimizi, ailə dəyərlərimizi kənara atmağın nəticəsidir. Ona görə bu istiqamətdə də iş aparılmalıdır. Milli mənəvi dəyərlərimizin, ailə dəyərlərimizin əleyhinə aparılan təbliğatlar tam dayandırılmalıdır və əksinə öz dəyərlərimiz təbliğ edilməlidir.

Əlavə olaraq, gənclərin bununla bağlı sosial dəstəyə də ehtiyacı var, onlara əlavə güzəştlər də lazımdır. Məsələn, 3 uşaqlı ailələrdə valideynlərin iş məsələsində dəstək verilməlidir, normal işləri olmalıdır. Əlavə müavinət olmalıdır. Ev problemi varsa, həll olunmalıdır, güzəştli şərtlərlə, uzunmüddətli mənzil alınmasına, sosial mənzilin alınmasına dəstək verilməlidir. Onların uşaqlarının təhsilində və sair məsələlərdə güzəştlər tətbiq olunmalıdır. Əgər bunlar olunsa, mütləq şəkildə bu tendensiyanı əksinə çevirə bilərik.

Buna həm maliyyə imkanlarımız var, həm də bizim güclü mənəvi bazamız var. Min illərdir belə olub, sadəcə son dövrlərdə bu tendensiya qlobal təsirlər nəticəsində yayılıb. Bunun qarşısını almaq üçün 2 istiqamətdə iş aparmaq lazımdır: sosial dəstək paketləri və mənəvi-psixoloji reabilitasiya. Bunlar həyata keçirilsə, hesab edirəm ki, uzağı 5 il ərzində biz balansı bərpa eləyə bilərik, yəni normal vəziyyətə qayıda bilərik.

# Ekoloqlar: "Dayanıqlıq yaradılmasa yanğınların arealı artacaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Keçən il Kaliforniya, Kanada, Avropa və Cənubi Koreyada fəlakətli yanğınlar insan həyatına, evlərə və iş yerlərinə son qoyub. Lakin araşdırmada 335 milyon hektar ərazinin yandırılmasının 2002-ci ildən bəri ikinci ən aşağı göstərici olduğu və bunun əsasən landşaftları parçalayan və böyük savanna yanğınlarının yayılmasına mane olan Afrika fermalarının genişlənməsi ilə əlaqəli olduğu aşkar edilib.***



2025-ci ildəki fəlakətlərə 100.000 hektardan çox ərazini yandıran Şotlandiya meqayanğını və ABŞ tarixində ən dağıdıcı olan Los-Ancelesdəki Palisades və Eaton yanğınları daxil olub. Şotlandiya meqayanğını Böyük Britaniyanın yandırılmış ərazilər üzrə rekordunu qırıb.

İspaniya və Portuqaliyada rekord qıran yanğınlar yarım milyon hektardan çox ərazini yandırıb, Cənubi Koreya isə tarixdə ən böyük və ən ölümcül meşə yanğınları mövsümünü yaşayıb. Araşdırmanın nəticələrinə görə, 2025-ci ildə yanğınlar hava fəlakətlərindən sığortalanan itkilərin 38%-dən çoxunu təşkil edib.

Şərqi İngiltərə Universitetinin iqlimşünası və tədqiqatın aparıcı müəllifi Metyu Cons bildirib ki, 2025-ci il göstərir ki, qlobal miqyasda sakit yanğın ili hələ də dağıdıcı ola bilər: "Yanğın sahəsi ilə real dünya təsirləri arasında getdikcə artan bir əlaqənin şahidi oluruq. Torpaq istifadəsindəki dəyişikliklər o deməkdir ki, meşə yanğınları planetin tarixən olduğundan daha az hissəsini yandırır, lakin qlobal istiləşmə onların yayılmasına imkan verən şərait yaradır və tədqiqatçıların insanların ən çox risk altında olduğu vəhşi təbiət-şəhər sərhədində təhlükəni artırır."

"Bu şərait yanğınlara səbəb olmur, lakin yanğın baş verdikdə, adi haldan daha tez alışan materialımız var, çünki o, daha qurudur. Üstəlik alovları qızışdıran külək faktoru var", Alikante Universitetinin tətbiqi riyaziyyatçısı David Garcia deyir: "Bu, böyük yanğınların baş vermə ehtimalını artırır."

Qarsiyanın keçən il həmmüəllifi olduğu atribusiya tədqiqatı göstərir ki, ötən il Portuqaliya və İspaniyada alovları qızışdıran ekstremal hava şəraitinin iqlim dəyişikliyi səbəbindən 39 dəfə çox olması ehtimalı var. O bildirir ki, əgər planeti istiləşdirməyə davam etsək, genişmiqyaslı yanğınlar artmağa davam edəcək.

Qlobal yanma sahəsinin ümumi azalması karbon qazı tullantılarının rekord səviyyədən üçüncü ən aşağı səviyyəyə düşməsinə səbəb olub, lakin Kanadada ekstremal meşə yanğınları tullantıları ardıcıl üçüncü ildir ki, qeydə alınıb. 2023-cü ildən bəri Şimali Amerikadakı şimal meşələri təxminən 4 milyard tona yaxın $CO_2$ buraxıb ki, bu da əvvəlki 15 illik dövrün ümumi tullantılarını aşıb.

Planeti qızdırmaqla yanaşı, meşə yanğınları tüstüsündəki çirkləndiricilər çirkli hava ilə nəfəs alaraq çox sayda insanın ölümünə səbəb olur. 2025-ci ilin sentyabr ayında dərc edilmiş bir yerli araşdırmaya görə, 2023-cü ildə Kanadada baş verən meşə yanğınlarının yaratdığı zəhərli hissəciklər 82.000 insanın ölümünə səbəb olub və hətta ABŞ, Avropa və Afrikadakı şəhərləri də tüstü boğub. İspaniyanın Qalisiya Bioloji Missiyasının landşaft ekoloqu Adrian Regos bildirib ki, ötən ilki hadisələr nisbətən az sayda ekstremal yanğının bütün yanğın mövsümünün ekoloji, sosial və iqtisadi nəticələrinə necə hakim ola biləcəyini göstərir.

"Bir sözlə, ümumi yanmış sahə ildən-ilə dəyişsə də, iqlim dəyişikliyi ekstremal yanğın hava şəraitinin yaranma ehtimalını artırır və kənd yerlərinin tərk edilməsi ilə əlaqəli yanacaq yığılması bir çox mənzərəni böyük və sürətlə yayılan yanğınlara qarşı daha həssas edir", - deyə ekoloq bildirib: "Buna görə də problem təkcə yanğınların sayını azaltmaqda deyil, həm də ekstremal hadisələrə qarşı dayanıqlığı artırmaqdadır."

***Lalə Mehralı***

# Dünya üçün BÖYÜK TƏHLÜKƏ - nüvə silahından istifadə olunacaqmı?

Dünyada hökm sürən amansız müharibələr fonunda diqqətçəkən məqam ondan ibarətdir ki, yaşlandıqları üçün düşünmək qabiliyyətindən məhrum olan nüvə dövlətlərinin başçıları hər an atom bombasından istifadəyə dair əmr verə bilərlər. Çünki nüvə dövlətlərinin başçıları quyruqları qapı arxasında olduğu məqamda bəşəriyyəti nüvə silahı ilə hədələyirlər. Rusiya Prezidenti V.Putin dünyanın təhdid edərək "Rusiyasız dünya bizim nəyimizə lazımdır" deyərək, atom bombasından istifadə edə biləcəyinə işarə edib. Eyni zamanda, Rusiya Təhlükəsizlik Şurasının sədr müavini D.Medvedev və Rusiya Dövlət Dumasının bəzi deputatları Putinə müraciət edərək ondan nüvə silahından istifadə etməklə ölkələrinin maraqlarını qorumağı xahiş ediblər. ABŞ prezidenti D.Tramp da tam zərərsizləşdirməkdə çətinlik çəkdiyi fars-molla rejimini sıradan çıxartmaq üçün "bir gecə də İran rejimi məhv ediləcək" deyərək nüvə silahından istifadə etməyə hazırlaşdıqlarını nümayiş etdirib.



## Nüvə silahından istifadə dünyanın sonunu gətirə bilər

BMT-nin təşəbbüsü ilə 2 iyun 1968-ci ildə imzalanan "Nüvə silahının yayılmaması barədə müqavilə" yə əsasən, nüvə dövlətləri 1967-ci il yanvarın 1-nə qədər nüvə sınaqları keçirən ölkələr hesab olunur. Həmçinin qeyd olunan müqaviləyə əsasən bu tarixdən sonra nüvə sınağı keçirən ölkələrin nüvə dövləti olması qanunsuz sayılacaq. Bu səbəbdən də biz nüvə dövlətlərindən danışarkən "rəsmi" və "qeyri-rəsmi" sözlərindən, anlayışlarından istifadə edirik. Nüvə sınaqları keçirmiş və bu silaha malik 9 dövlət həm də "Nüvə klubu"-nun üzvü sayılır. Silahlara Nəzarət Assosasiyasının məlumatına əsasən, hal-hazırda nüvə dövlətlərinin ixtiyarında təxminən 13000 nüvə başlığı var. "Nüvə klubu"-nun üzvü olan dövlətlərin nüvə sınaqlarını keçirilmə tarixlərinin ardıcıllığı belədir : - ABŞ dünyanın ilk nüvə dövləti hesab olunur. Bu ölkə 1945-ci il iyulun 16-da Nyu-Meksika ştatının Alamoqoro səhrasında 20 kilotonluq atom bombasının ilk sınağını keçirdib. Hazırda ABŞ-ın arsenalında 5500 nüvə başlığı var. - Tarixdə 2-ci nüvə dövləti Rusiya sayılır. 1949-cu il avqustun 29-da Qazaxstanın Semipalatinsk poliqonunda 22 kilotonluq ilk sovet nüvə silahının sınağı keçirilib. SSRİ-nin süqutundan sonra bütün nüvə silahları onun varisi Rusiya Federasiyasına verilib. Rusiya 6257 nüvə başlığı ilə dünyanın ən böyük nüvə dövlətidir. - Böyük Britaniya ilk nüvə sınaqlarını 1952-ci il oktyabrın 3-də Sakit okeanındakı Monte - Bello adasında həyata keçirib. Hazırda ölkə ərazisində 225-dən artıq nüvə başlığı saxlanılır. - Fransa 1960-cı il fevralın 13-dən nüvə dövlətidir. Fransa 290 aktiv nüvə başlığına malikdir. - Çin 1964-cü il oktyabrın 16-da Lobnor gölü yaxınlığında 20 kilotonluq nüvə silahını sınaqdan keçirməklə nüvə dövlətləri ailəsinə daxil olan 5-ci ölkədir. Çinin arsenalında 350 - dən artıq nüvə başlığı var. - Hindistan 1974-cü il mayın 18-də ilk nüvə sınağını gerçəkləşdirib. Hindistanın 160 nüvə başlığı var. - İsrail 1979-cu il sentyabrın 22-də qeyri-rəsmi nüvə sınağı keçirib. Xarici kəşfiyyat məlumatlarına əsasən, 90 nüvə başlığı olan israil dövləti rəsmi şəkildə bunu təsdiqləmir. - Pakistan 1998-ci il mayın 28-dən nüvə dövləti sayılır. Arsenalında 165 nüvə başlığı olan Pakisan həm də nüvə silahına sahib olan ilk və yeganə müsəlman dövlətidir. - Şimali Koreya 2006-cı il oktyabrın 9-da ilk dəfə nüvə sınağı həyata keçirib. Nüvə silahından imtina edən dövlətlər də var: Məsələn, Lissabon protokoluna əsasən, Ukrayna, Qazaxıstan və Belarus ərazilərindəki nüvə silahlarını könüllü əsasda Rusiyaya təhvil veriblər, yaxud məhv ediblər. Argentina, Braziliya və Cənubi Afrika Respublikası da könüllü əsasda nüvə texnologiyası tədqiqatlarından imtina edərək, "Nüvə silahının yayılmaması barədə müqavilə"yə qoşulublar. Elə dövlətlər də var ki, onlar nüvə silahı əldə etməyə can atsalar da, istəklərinə nail ola bilməyiblər. Hitler Almaniyası 1942-ci ildən nüvə silahı əldə etmək üçün geniş işlərə başlamış, ancaq istəklər reallığa çevrilməyib. Əgər həqiqətən də nasistlər nüvə silahı əldə etsə idilər, bugünkü dünyamız olmayacaqdı. Onlar müqavimət göstərən dövlətləri nüvə silahı ilə hədəfə alacaqdılar ki, bu da dünyanın sonunu gətirəcəkdi. Bununla belə A.Hitler və ətrafındakı nasistlər dünyada 70 milyona yaxın insanın həyatına son qoydular. Hadisələrin inkişafı təsdiq edir ki, müharibədə dünya əhalisinin 85 faizi, yəni 1, 8 milyard insan iştirak etmişdir. Ən qanlı savaş Almaniya ilə SSRİ arasında baş verdi. A.Hitlerin "Barbarossa" strateji planına görə, üç həftə ərzində SSRİ məğlubiyyətə uğramalı idi. Bu məqsədlə faşist Almaniyası 6 milyona yaxın canlı qüvvə olmaqla 190 diviziya, 4300 tank, 47 min top və minaatan, 4980 döyüş təyyarəsi və 192 döyüş gəmisindən ibarət qüvvə ilə SSRİ-nin ilhaqı üçün hücuma keçdilər. Faşistlər elə hesab edirdilər ki, böyük əraziyə və çoxmillətli dövlətə malik sovetlər hücum etməklə xalqlar mərkəzi hakimiyyətlə əlaqələrini kəsib, müstəqilliyə və suverenliklərinin qorunmasına can atacaqlar. A.Hitler bu barədə demişdir: "Rusiyanın geniş ərazisində yaşayan xalqlara münasibətdə siyasətimiz istənilən formada fikir ayrılığı və parçalanmanı təqdir etməkdir". Lakin nasistlərin uzaqlara hesablanan planları iflasa uğradı. O zaman SSRİ-ni öz dövlətləri hesab edən xalqlar vahid bayraq altında birləşməklə faşizm kimi yırtıcı düşmənə qarşı birgə mübarizə apardılar. Amansız mübarizə SSRİ-nin faşizm üzərində qələbəsi ilə başa çatdı. İkinci dünya müharibəsi başa çatdıqdan sonra məlum olmuşdur ki, müharibə zamanı 70 milyondan çox adam həyatını itirib, 200 nəfər insan isə yaralanıb. Ölən insanlardan 30 milyonu SSRİ-nin, 13,6 milyonu Almaniyanın, 6 milyonu Polşanın, 5 milyonu Çinin, 2,5 milyonu Yaponiyanın, 1,7 milyonu Yuqoslaviyanın, 600 mini Fransanın, 370 mini İngiltərənin, 300 mini ABŞ-ın və digər dövlətlərin payına düşmüşdü.

## Almaniya nüvə silahı əldə etməyə çalışır

İkinci Dünya müharibəsindən sonra Almaniya ordu saxlamaqdan, hərbi texnika istehsal etməkdən və onu dünya bazarına çıxarıb satışını təşkil etməkdən məhrum edilmişdir. Bununla bağlı SSRİ, ABŞ və Böyük Britaniya liderlərinin 1945-ci il Yalta görüşündə razılaşma əldə edilmiş və bununla bağlı sənəd imzalanmışlar. Lakin SSRİ-nin süqutundan sonra imzalanan saziş aktuallığını itirdi. Hazırda Almaniya öz hərbi sistemini qurmaqdadır. Daha doğrusu, hərbi gücünə görə Almaniya heç də digər Avropa dövlətlərindən geri qalmır. Müasir hərbi silah sursat istehsal etməklə onu digər dövlətlərə də satışını həyata keçirir. Ən qorxulusu isə Almaniyanın getdikcə daha çox faşist ideologiyasına meyil göstərməsidir. Artıq Almaniyanın bir çox bölgələrində faşist dərnəklərinin yaradılması işi aparılır. Bununla bağlı hökumət 20 milyard avro vəsaitdə ayırıb. Bəzi hallarda Almaniyanın dünyada gedən münaqişələri, müharibələri qızışdırması, onları maliyyə və hərbi silah-sursatla təchiz etməsi də, məhz yeni yaranan nasistlərin sifarişi və dəstəyidir. Almaniya dövləti faşist ideologiyasının məqsəd və vəzifələrinin gənclər arasında daha geniş təbliğ edilməsi məqsədi ilə Adolf Hitlerin qələmə aldığı "Mayn kampf ("Mənim mübarizəm") kitabını yeni formada çap etməklə yayımını həyata keçirir. Bütün bunlar isə təhlükəlidir.

***İ.ƏLİYEV***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

ARAŞDIRMA

# XXI əsrin uşaqları: ekranlar, hüquqlar və dəyişən uşaqlıq



**Uşaq hər bir cəmiyyətin gələcəyidir. Buna görə də uşaqların sağlam, təhlükəsiz və hüquqlarının qorunduğu mühitdə böyüməsi təkcə ailələrin deyil, dövlətlərin və beynəlxalq təşkilatların da əsas prioritetlərindən biridir. Hər il iyunun 1-də qeyd olunan Beynəlxalq Uşaqların Müdafiəsi Günü dünyaya bir daha xatırladır ki, uşaqların yalnız sevgi və qayğıya deyil, həm də fundamental hüquqlara ehtiyacı var. SİA mövzu ilə bağlı araşdırma edib.**

Müasir dövrdə uşaqlıq anlayışı əvvəlki nəsillərlə müqayisədə ciddi şəkildə dəyişib. Əgər bir vaxtlar uşaqlar küçələrdə oyun oynayaraq böyüyürdüsə, bu gün onların gündəlik həyatında rəqəmsal platformalar, sosial şəbəkələr və onlayn oyunlar mühüm yer tutur. Bununla yanaşı, qidalanma vərdişləri, təhsil imkanları və sosial mühit də dəyişir. Bu dəyişikliklər fonunda əsas sual yaranır: dünyanın və Azərbaycanın uşaqları hansı şəraitdə böyüyür?

## Dünyada uşaq hüquqları necə qorunur?

1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilən Uşaq Hüquqları Konvensiyası uşaqların hüquqlarını müəyyən edən ən mühüm beynəlxalq sənəd hesab olunur. Konvensiya uşaqları müstəqil hüquq sahibi kimi tanıyır və onların yaşamaq, inkişaf etmək, təhsil almaq, sağlamlıq xidmətlərindən istifadə etmək, fikirlərini ifadə etmək və zorakılıqdan qorunmaq hüquqlarını təsbit edir.

**Sənədin əsas prinsipləri bunlardır:**
- Ayrı-seçkiliyin yolverilməzliyi;
- Uşağın maraqlarının üstün tutulması;
- Yaşamaq və inkişaf hüququ;
- Uşağın fikrinin nəzərə alınması. (unicef.ch)

Bu gün dünyanın əksər ölkələri həmin konvensiyanı ratifikasiya edib və milli qanunvericiliklərini bu prinsiplərə uyğunlaşdırmağa çalışırlar. Buna baxmayaraq, milyonlarla uşaq hələ də yoxsulluq, müharibə, məcburi əmək, erkən nikah və təhsil imkanlarının məhdudluğu kimi problemlərlə üzləşir.

## Azərbaycanda uşaq hüquqları

Azərbaycan da Uşaq Hüquqları Konvensiyasına qoşulan ölkələr sırasındadır. Ölkədə uşaqların müdafiəsi, təhsil və səhiyyə xidmətlərinə çıxışı ilə bağlı müxtəlif dövlət proqramları həyata keçirilir.

## Uşaqların qidalanması: fast-food nəsli böyüyür?

Müasir uşaqların həyatında qidalanma məsələsi xüsusi yer tutur. Dünya Səhiyyə Təşkilatının müxtəlif hesabatlarında qeyd olunur ki, son illərdə uşaqlar arasında piylənmə və artıq çəki halları artıb. Bunun əsas səbəblərindən biri yüksək kalorili, şəkərli və emal olunmuş qidaların geniş yayılmasıdır. Əvvəllər uşaqların gündəlik menyusunda ev yeməkləri üstünlük təşkil edirdisə, bu gün:
- Fast-food məhsulları;
- Şəkərli içkilər;
- Çips və müxtəlif qəlyanaltılar;
- Hazır desertlər daha çox istehlak edilir.

Mütəxəssislər uşaqların qidalanmasında meyvə, tərəvəz, süd məhsulları, təbii protein mənbələri və kifayət qədər su qəbulunun vacibliyini vurğulayırlar. Azərbaycan ailələrində isə ənənəvi olaraq şorbalar, plov, süd məhsulları, təzə meyvə və tərəvəzlər uşaq qidalanmasının əsas hissəsini təşkil edib. Lakin qlobal qida bazarının təsiri yerli qidalanma vərdişlərini də dəyişməyə başlayıb.

## Oyun meydançalarından rəqəmsal platformalara

Bir neçə onillik əvvəl uşaqların əsas əyləncəsi həyətlərdə gizlənpaç, kəndir atlama, futbol və digər kollektiv oyunlar idi. Bu gün isə texnologiya uşaqların asudə vaxtının böyük hissəsini tutur.

## Dünyanın müxtəlif ölkələrində uşaqlıq fərqli yaşanır

Uşaqlıq anlayışı bütün dünyada eyni deyil. Milli və mədəni xüsusiyyətlər uşaqların böyüməsinə birbaşa təsir göstərir.

***Yaponiya***

Yaponiyada uşaqlar erkən yaşlardan müstəqilliyə alışdırılır. Kiçik yaşlı məktəblilərin təkbaşına məktəbə getməsi adi hal sayılır.

***Skandinaviya ölkələri***

Norveç, İsveç və Finlandiyada uşaqların təbiətlə təması xüsusi əhəmiyyət daşıyır. Açıq havada təhsil və oyun sistemi geniş tətbiq olunur.

***ABŞ***

Amerikada uşaqların fərdi bacarıqlarının inkişafı və maraqlarının dəstəklənməsi əsas prioritetlərdəndir. İdman, musiqi və müxtəlif yaradıcılıq kursları uşaqların gündəlik həyatının mühüm hissəsidir.

***Azərbaycan***

Azərbaycan ailə modeli daha çox kollektiv dəyərlərə söykənir. Uşaqlar nənə-baba, əmi-dayı və digər qohumlarla sıx münasibət içində böyüyürlər. Ailə bağları və böyüyə hörmət anlayışı uşaqların tərbiyəsində mühüm rol oynayır.

## Müharibə və böhranların uşaqlara təsiri

Dünyanın müxtəlif bölgələrində davam edən müharibələr, humanitar böhranlar və miqrasiya problemləri milyonlarla uşağın həyatına təsir göstərir.

**Münaqişə zonalarında yaşayan uşaqlar:**
- Təhsildən məhrum olur;
- Psixoloji travmalar yaşayır;
- Məcburi köçkün vəziyyətinə düşür;
- Sağlamlıq xidmətlərinə çıxış imkanları itirilir.

Beynəlxalq təşkilatlar hesab edir ki, uşaqların qorunması hər hansı siyasi və ya hərbi maraqlardan üstün tutulmalıdır.

## Sosial media dövrünün uşaqları

Bugünkü uşaqlar tarixdə ilk dəfə olaraq doğulduqları andan rəqəmsal mühitə daxil olan nəsildir. Onlar həm real, həm də virtual dünyada böyüyürlər.

Bu vəziyyət bir tərəfdən yeni bilik və imkanlar yaratsa da, digər tərəfdən:
- Kiberzorakılıq;
- İnformasiya çirkliliyi;
- Psixoloji təzyiq;
- Erkən yaşda sosial müqayisə kimi problemləri də gündəmə gətirir.

1 İyun sadəcə bayram deyil. Bu gün uşaqların qarşılaşdığı problemləri, hüquqlarını və gələcəyini yenidən düşünmək üçün bir fürsətdir. Dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir uşağın təhlükəsiz mühitdə böyümək, keyfiyyətli təhsil almaq, sağlam qidalanmaq, oynamaq və öz fikrini sərbəst ifadə etmək hüququ var.

Cəmiyyətlərin inkişaf səviyyəsi təkcə iqtisadi göstəricilərlə deyil, uşaqlarına təqdim etdiyi həyat şəraiti ilə də ölçülür. Çünki bugünün uşaqları sabahın alimləri, müəllimləri, həkimləri, jurnalistləri və dövlət rəhbərləridir”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**